## Qurban Abasov - 90

# Əfsanəvi neftçi

### 2016-cı il yanvarın 1-də məşhur fəxri neftçi, açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarından biri, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qurban Abasqulu oğlu Abasovun anadan olmasının 90 ili tamam olmuşdur

**Əsrlər boyu özünün neft kimi təbii sərvəti ilə xalqların yoluna məşəl tutan Azərbaycan dünyada neft işinin kamil bilici və təşkilatçılarının vətəni kimi də tanınmışdır. Bununla əlaqədar olaraq belə bir faktı qeyd etmək istəyirəm ki, 2012-ci ildə Moskvada nəşr edilmiş neft və qaz "Ensiklopedik albom"unda keçmiş Sovet İttifaqının minə qədər ən görkəmli neftçisi barəsində məlumat toplanmışdır ki, onların da təxminən hər dörd nəfərindən biri Azərbaycan neft məktəbinin yetişdirməsidir.**





**Xoşbəxt YUSİFZADƏ,**
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü*

Adı yalnız həmin "Ensiklopediya"nı deyil, bir çox digər elmi, bədii, sənədli və publisistik nəşrləri bəzəyən və heç vaxt unudulmayan məşhur Azərbaycan neftçilərindən biri də Qurban Abasqulu oğlu Abasovdur.

Qurban Abasovu xatırlayanda mən vaxtilə nəhəng Maqnitoqorsk metallurgiya kombinatı tikintisinin rəhbəri kimi Rusiyada və keçmiş SSRİ-də böyük şöhrət tapmış azərbaycanlı mühəndis Çingiz İldırım haqqında məşhur rus yazıçısı Maksim Qorkinin yazdıqlarını sanki yenidən oxuyuram: "O, bəşər deyil, qılıncdır, alovdur, ildırımdır". Uzun illər Qurban Abasovla çalışan neftçilərdən biri kimi deyə bilərəm ki, bu sözləri eynilə ona da aid etmək olar. O, həqiqətən də od-alov idi, dinclik bilmədən çalışır, öyrənir, həmişə işin çətinindən yapışırdı.

Azərbaycanda və keçmiş İttifaqın neft rayonlarında hamının sadəcə olaraq "Neftçi Qurban" kimi tanıdığı Q.Abasov 1926-cı il yanvarın 1-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Payız kəndində anadan olmuşdu. 1944-cü ildə onu döyüşən ordu sıralarına çağırmış və digər gənclərlə birlikdə qatarla Bakıya yola salmışdılar. Lakin Bakıda Qurban Abasova və onun səfər yoldaşlarına elan etmişdilər ki, onların sovet-alman cəbhəsinə deyil, neft cəbhəsinə göndərilməsi qərara alınmışdır. Həmin vaxtdan da Qurban Abasov Azərbaycanın neftçilər ordusunun əsgəri və sonralar komandanı kimi ömrünün əlli ilini respublikamızın neft sənayesinin inkişafına həsr etmişdir.

Onun əmək yolu "Artyomneft" trestinin (indiki "Abşeronneft" NQÇİ) mədənlərindən başlanmışdır. Qurban Abasov burada bir müddət fəhlə kimi çalışmış və neftçi peşəsinə ürəkdən bağlanmışdır. Bu peşənin incəliklərinə o, diqqətlə yiyələnməyə başlamış, biliyini, təcrübəsini günbəgün artırmışdır.



1975-ci il Qurban Abasov və Xoşbəxt Yusifzadə. Moskva.

Dünənki kənd balasının neft işinə qibtədiləcək vurğunluğu, işgüzarlığı və əməksevərliyi hamıda xoş ovqat yaradır və onun gələcək uğurlarından xəbər verirdi. Qazmaçı köməkçisi, qazmaçı, buruq ustası... O, addım-addım irəliləyir, dəniz neftçisi kimi tamamilə yeni bir peşənin iş prinsiplərini və xüsusiyyətlərini müəyyən edən bacarıqlı mütəxəssislərdən birinə çevrilirdi.

Hələ 21 yaşında ikən keçmiş SSRİ-nin ən gənc buruq ustası olan Qurban Abasovun bu sahədə istedadı "Gürganneft" Neft Mədənləri İdarəsində (indiki "Neft Daşları" NQÇİ) özünü bütün genişliyi ilə göstərdi.

Dəniz qazması sahəsində Qurban Abasovun istedadı onu Xəzərdə baş vermiş ən böyük tarixi hadisələrdən birinin - 1949-cu ildə Neft Daşları yatağının kəşf edilməsinin iştirakçısı kimi məşhurlaşdırdı.

Bu hadisə 1949-cu ildə baş verdi. Neft Daşlarında dənizin dibinə vurulmuş dirəklər üzərində 14 kvadratmetrlik bir "ev" tikildi, radiostansiya quruldu, sahillə əlaqə yaradıldı və yataqda 1 nömrəli quyunun qazılmasına hazırlıq işləri görüldü. İlk quyunun qazılması sonralar Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş qazma ustası Mixail Kaveroçkinlə birlikdə 23 yaşlı Qurban Abasova həvalə edilmişdi. Onların rəhbərlik etdiyi briqada işə 1949-cu il iyunun 24-də başladı. Həmin il noyabrın 7-də isə 942 metr dərinlikdən - Qala lay dəstəsindən ilk neft fontan vurdu. Quyunun gündəlik hasilatı 100 tondan artıq idi. Bu fontanla da neft sənayesinin tarixində açıq dənizdə neft hasilatı erasının təməli qoyuldu.

Daha sonra "Möcüzələr adası"nda ikinci quyunun qazılmasına start verildi və bu iş də buruq ustası Qurban Abasovun rəhbərlik etdiyi briqadaya tapşırıldı.

Onun rəhbərlik etdiyi briqadanın əldə etdiyi nailiyyətlər keçmiş İttifaqın neft sənayesində ən yüksək göstəricilər sırasında yer alırdı. Təsadüfi deyil ki, "Gürgan-dəniz" və "Neft Daşları" yataqlarının mənimsənilməsində xüsusi xidmətləri olan neftçilərlə birlikdə Qurban Abasov da 1951-ci ildə birinci dərəcəli Stalin mükafatına layiq görüldü. O vaxt onun cəmi 25 yaşı var idi.

Qurban Abasov üçün vəzifə borcu müqəddəs bir iş idi və bu iş xüsusilə dəniz şəraitində çalışanlardan böyük cəsarət, iradə və əzmkarlıq tələb edirdi. Bir insan və mütəxəssis kimi Neftçi Qurban da məhz bu keyfiyyətləri ilə seçilirdi.

O, vəzifə ardınca qaçmırdı, əksinə, vəzifələrin özü onun ardınca gəzirdi. 1952-1959-cu illərdə Qurban Abasov "Gürganneft" Neft Mədənləri İdarəsi Şimal Sahəsi Qazma İdarəsinin rəisi, 1959-1962-ci illərdə "Orconikidzeneft" (indiki "Suraxanı Oyl" Əməliyyat Şirkəti) Neft Mədənləri İdarəsi qazma kontorunun rəisi, 1962-1967-ci illərdə "Qum adası" Neft Mədənləri İdarəsi (indiki "Bahar Enerji" Əməliyyat Şirkəti) qazma kontorunun rəisi, 1967-1976-cı illərdə "Azərdənizneftkəşfiyyat" və "Xəzərdənizneftkəşfiyyat" trestlərinin rəisi, 1976-1977-ci illərdə "Xəzərdənizneft" İstehsalat Birliyi baş direktorunun müavini, 1977-1980-ci illərdə "Neft Daşları" NQÇİ-nin rəisi vəzifələrində çalışdı və hər yerdə ona göstərilən etimadı layiqincə doğrultdu.

Neft Daşları Qurban Abasov üçün sanki ikinci bir ata ocağı idi. Buranı o, qəlbən sevir və dünyanın bu səkkizinci möcüzəsinin xalqımıza hələ uzun illər xidmət edəcəyinə ürəkdən inanırdı. Onun "Neft Daşları"na rəhbərlik etdiyi illərdə NQÇİ-də neft hasilatı planı hər il yerinə yetirilirdi. İki il yarımda burada plandan əlavə 200 min tondan artıq neft hasil edilmişdi. Belə bir göstəricinin əldə olunması üçün mədənlərdə mürəkkəb texniki-texnoloji tədbirlər həyata keçirilmiş, qaz kompressor stansiyalarında, əmtəə çənləri parkında, estakada və meydançalarda böyük həcmdə təmir-bərpa işləri görülmüş, qazma və tikinti idarələrinin işinin sürəti və səmərəliliyi xeyli artırılmışdı. "Neft Daşları"nda beşmərtəbəli üç yataqxana və beşmərtəbəli inzibati idarə binası tikilib istismara verilmişdi.

Həmin illərdə Qurban Abasov artıq çox böyük və mürəkkəb vəzifələrin həyata keçirilməsinə rəhbərlik etməyi bacaran müdrik bir istehsalat komandiri kimi yetişmişdi. O, hələ ötən əsrin əllinci illərində Bakı Neft Texnikumunun "Neft Daşları"ndakı filialını, daha sonra Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) da bitirmişdi.

1980-ci ildə Azərbaycanın dəniz neftçilərinin həyatında daha bir parlaq hadisə baş verdi: suyun 80-350 metr dərinliyində yerləşən "Günəşli" yatağı kəşf olundu. Bu yatağın kəşfi respublikada neft və qaz hasilatının artırılmasında müstəsna rol oynadı.

1980-ci ildə Qurban Abasov Ümumittifaq "Xəzərdənizneftqaz" Sənaye Birliyinin rəisi təyin edildi. O vaxt mən bu Sənaye Birliyi rəisinin müavini - baş geoloq vəzifəsində çalışırdım. Uzun müddət dənizdə işləmiş neftçilər adətən bir-birlərini gözəl başa düşürlər və bu, çox mürəkkəb məsələlərin həllində əsl açar rolunu oynayır. Lakin bu da həqiqətdir ki, Qurban Abasovla işləmək o qədər də asan deyildi. O, həddindən artıq tələbkar və narahat adam idi. Özü işə necə can yandırırdısa, başqalarından da var qüvvə ilə çalışmağı və bu zaman bütün şəxsi problemləri unutmağı tələb edirdi.

O illərdə Qurban Abasovun və Birliyin bütün mütəxəssislərinin vəzifəsi "Günəşli" yatağını tez bir zamanda işə salmaqdan ibarət idi. Bu məsələdə Birlik rəisinin xüsusilə böyük rolu oldu və biz yeni sınaqdan da uğurla çıxdıq, ölkə rəhbərliyinin, ümummilli liderimiz Heydər Əliyevin qarşıya qoyduğu vəzifənin öhdəsindən layiqincə gəldik.

Onu da xatırlayıram ki, 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Leonid İliç Brejnev Azərbaycana gəldi. O vaxt biz "Şelf-2" üzən yarımdalma qurğusunu almışdıq. Qurğu Bakı limanında dayanmışdı. Brejnev burada da oldu. Qurğu barədə ona rəisimiz Qurban Abasov məlumat verdi, Azərbaycan neftçilərinin Xəzər dənizində gördükləri işlərdən danışdı.

⇨ **Davamı 5-ci səhifədə**

## Qurban Abasov - 90

# Əfsanəvi neftçi

**2016-cı il yanvarın 1-də məşhur fəxri neftçi, açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarından biri, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Qurban Abasqulu oğlu Abasovun anadan olmasının 90 ili tamam olmuşdur**

⇨ Əvvəli 4-cü səhifədə

İndi həmin hadisəni və ümumiyyətlə, Qurban Abasovla birgə işlədiyimiz illəri yada salanda bu əfsanəvi neftçinin gördüyü əzəmətli işlər gözlərim önündə yenidən canlanır. Bu işləri isə saymaqla qurtarmaq mümkün deyil. Bununla belə, mən Azərbaycanın neft sənayesi qarşısında onun mühüm xidmətlərindən bəzilərini yada salmaq istəyirəm.

“Şelf” tipli yarımdalma üzən qazma qurğularının Xəzər dənizi şəraitində mənimsənilməsində Qurban Abasovun xüsusi xidmətləri olmuşdur. Bu qurğular dənizin dərin yerlərində yeni yataqların kəşf edilməsinə, yeni perspektivli strukturlarda kəşfiyyat işlərinin aparılmasına imkan vermişdir.

Qurban Abasovun bilavasitə rəhbərliyi altında dərin dəniz stasionar platformaları tikintisinin istehsalat bazası yaradılmış, Xəzər dənizinin dərin sahələrində platformalar tikintisinin prinsipcə yeni metodu işlənib hazırlanmışdır. “Günəşli”, “Çıraq”, “Azəri”, “Kəpəz” və s. kimi iri yataqların kəşf edilməsində də onun xüsusi xidmətləri olmuşdur.

Qurban Abasov dənizdə hasilatla birlikdə infrastruktur obyektlərinin də harmonik inkişafına ciddi fikir vermişdir.

Ötən əsrin 90-cı illərində biz artıq tamamilə yeni bir şəraitdə - keçmiş sovet respublikaları ilə əlaqələrin qırıldığı, maliyyə və



Qurban Abasov (soldan ikinci) neftçilərlə birlikdə dəniz mədənində

təchizat məsələlərinin heç cür həll edilmədiyi bir dövrdə işləyirdik. Amma buna baxmayaraq, Qurban Abasov çətinliklə də olsa, öz müdrikliyi və böyük nüfuzu sayəsində neft sənayesi üçün müəyyən işlər görməyə çalışırdı. Azərbaycanın digər mütəxəssisləri kimi böhrandan çıxış yolunu o da xarici neft şirkətləri ilə işbirliyində görürdü. 1992-1994-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti prezidentinin baş müşaviri vəzifəsində çalışanda da o, Qərb ölkələrinin iri neft şirkətləri ilə “Azəri”-“Çıraq”- “Günəşli” yataqları üzrə danışıqların uğurla başa çatdırılması və “Əsrin müqaviləsi” kimi məşhur Sazişin imzalanması üçün böyük əmək sərf etmişdir.

Qurban Abasovun xidmətləri yüksək qiymətləndirilmişdir. “Neft Daşları” yatağının kəşf olunması və mənimsənilməsinə görə 1951-ci ildə 1-ci dərəcəli Dövlət mükafatı almış görkəmli neftçi çox maili quyuların qazılmasına görə 1972-ci ildə Azərbaycanın da Dövlət mükafatına layiq görülmüşdür.

Neft və qaz sənayesində əldə etdiyi müvəffəqiyyətlərə görə hələ 33 yaşında ikən ona Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Qurban Abasov keçmiş SSRİ-nin iki Lenin ordeni, “Oktyabr İnqilabı” ordeni, iki “Qırmızı Əmək Bayrağı” ordeni, “Şərəf Nişanı” ordeni ilə və bir çox medallarla təltif olunmuşdur. 1960-cı ildə o, “Azərbaycan SSR-in neft ustası”, neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə 1970-ci ildə “SSRİ-nin fəxri neftçisi” adına, 1975-ci ildə “Azərbaycan SSR-in əməkdar mühəndisi” adına layiq görülmüşdür.

Özünün halal və fədakar əməyi ilə Qurban Abasov respublika zəhmətkeşlərinin dərin hörmət və etimadını qazanmış, bir neçə çağırış SSRİ Ali Sovetinin, Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. O, müstəqil Azərbaycan Respublikasının “Şöhrət” ordeninə birincilər sırasında layiq görülmüşdür.

Qurban Abasov 1994-cü il sentyabrın 14-də ömrünün 69-cu ilində dünyasını dəyişdi. Onun dəfn mərasimində ümummilli liderimiz Heydər Əliyevin çıxışını mən indi də həyəcansız xatırlaya bilmirəm. Ulu Öndər dedi ki, “Qurban Abasovun həyat yolu parlaqdır, nümunəvidir və xalqımızın nəyə qadir olduğunu əyani surətdə nümayiş etdirir. Adi bir gənc Azərbaycan sənayesinin, iqtisadiyyatının ən mühüm, eyni zamanda ən ağır sahəsi olan neft sənayesi sahəsində ən kiçik işdən - fəhləlikdən ən yüksək zirvəyə çatmışdır. Qurban Abasovun fitri istedadı zəhmətkeşliyi, əməksevərliyi, vətənpərvərliyi ilə bağlıdır. Məhz xalqını sevən adam, vətənpərvər adam, zəhmətkeş adam 50 il ərzində bu ağır sahədə öz çiynində böyük yükü daşımağa qadir ola bilərdi”.

Qurban Abasovu yalnız neftçilər deyil, bütün xalqımız sevirdi. Hamı onu mübariz, prinsipial, tələbkar, qayğıkeş və ədalətli bir insan kimi tanıyır və ona dərin hörmət bəsləyirdi. Ona həsr olunmuş məşhur “Neftçi Qurban” mahnısı ifa edildiyi gündən dillər əzbəri olmuşdur.

Neftçi Qurban - Xəzər neftçilərinin fəxri Qurban Abasov qədirbilən Azərbaycan xalqının qəlbində həmin mahnıda deyildiyi kimi, bu gün də “gülərüzlü, saf ürəkli qəhrəman” kimi yaşayır.